https://doi.org/10.59849/3006-1342.2025.3.28
UOT 94 (479.24)

*Cavid Vəkil oğlu Bağırzadə*
*Gəncə Dövlət Universiteti*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: cavid.bagirzade@gdu.edu.az*
*https://orcid.org/0009-0000-8358-6497*

# 1918-Cİ İL İYUN BÖHRANININ ARADAN QALDIRILMASINDA MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN FƏALİYYƏTİ

*1918-ci il iyunun 16-17-də Gəncədə yaranmış İyun böhranı Məhəmməd Əmin Rəsulzadənin, Nəsib bəy Yusifbəylinin, Fətəli xan Xoyskinin və onlarla birlikdə olanların qətiyyəti, Azərbaycan istiqlalına sədaqəti, siyasi gedişi nəticəsində aradan qalxdı. Doğrudur, Milli Şuranın bəzi üzvləri Milli Şuranın buraxılmasının əleyhinə idilər və bu mövqe böhranlı vəziyyəti daha da ağırlaşdırırdı. Bütün bunlara baxmayaraq Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi və qətiyyətli mövqeyi ilə Milli Şuranın 1918-ci il iyunun 17-də keçirilən 7-ci iclasında Milli Şura özünü buraxdı və tarixi əhəmiyyətli qərar qəbul etdi. Bununla da böhranlı vəziyyət aradan qaldırıldı, Azərbaycan istiqlalı qaragüruhçuların fitnə-fəsadından, başqa sözlə daxili düşmənlərdən qorundu. Azərbaycan istiqlalının tarixi sınaq qarşısında qaldığı İyun böhranının aradan qaldırlmasında Azərbaycan Milli Şurasının, xüsusilə də onun sədri Məhəmməd Əmin Rəsulzadənin bilavasitə böyük rolu olmuşdur. Məhz Məhəmməd Əmin Rəsulzadə və onun istiqlal silahadaşlarının siyasi fəaliyyətinin və əzmkarlığının sayəsində bu böhran aradan qaldırlmış, Azərbaycanın yenicə elan edilmiş istiqlalı xilas olunmuşdur.*

*Cümhuriyyət qurucuları olduqca çətin və mürəkkəb bir vəziyyətə malik dövrdə Azərbaycanın istiqlalı uğruda həm daxili, həm də xarici qüvvələrlə mübarizə aparmalı olmuşlar. Azərbaycan istiqlal asan, hamar yol keçməmişdir. Aydın məsələdir ki, İyun böhranı, təsir altına düşmüş Nuru paşanın Azərbaycan Milli Şurasına və hökumətinə olan münasibətindən dolayı yaranmışdır. Nuru paşanın belə bir mövqeyi Osmanlı dövlətinin mövqeyi deyildi.*

*Açar sözlər:* Azərbaycan istiqlalı, İyun böhranı, Məhəmməd Əmin Rəsulzadə, Nuru paşa, Azərbaycan Milli Şurası

## *Giriş*

Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra bütün Azərbaycanda , eləcə də Bakıda bolşevik-daşnak alyansı at oynadırdı və M.Ə.Rəsulzadənin dili ilə desək, böylə bir təhlükə qarşısında milləti müdafiə edəcək yalnız bir Gəncə qalmışdı. Azərbaycan Cümhuriyyətinin 3 aylıq Gəncə dövründə dövlətin ilk addımları məhz bu müqəddəs şəhərdə atıldı. Dövlət sturkturlarının formalaşması məhz Gəncənin adı ilə bağlıdır [11, s. 172]. XX əsrin əvvəllərində müxtəlif xalqların yaşadığı, sənayenin, xüsusilə də neft sənayesinin inkişafı sayəsində sənaye, mədəniyyət mərkəzinə çevrilmiş, neftli beynəlmiləlçi və milyonçu Bakı şəhərindən fərqli olaraq Gəncə şəhəri milli dəyərlərin qorunduğu, milli azadlıq uğrunda mübarizənin cücərtilərinin olduğu, milli hərəkatın meydana gəldiyi bir mərkəz idi. Təsadüfi deyildir ki, Azərbaycan Cümhuriyyətinin, onun dövlət sturukturlarının yaradılmasında fəal iştirak etmiş şəxslərin, Cümhuriyyət fəadilərinin böyük əksəriyyəti ya gəncəli olmuş, ya bu və ya digər dərəcədə Gəncə ilə bağlı olmuş, ya da məhz Gəncədə yaşamış, burada ilk təhsilini almış və ya çalışmış, onun ictimai mühitinin köynəyindən çıxmış şəxslər olmuşdur. Bir sözlə,

Azərbaycan istiqlalı uğrunda mübarizənin tam ağırlığının yerləşdiyi yer Gəncə şəhəri və onun mərkəzi olduğu Gəncə quberniyası olmuşdur.

Azərbaycan Cümhuriyyətinin Müvəqqəti Hökuməti və Milli Şuranın Gəncəyə gəldiyi ilk gündə yaranmış siyasi böhran – İyun böhranı haqqında elmi ədəbiyyatda yetərincə bəhs olunmuşdur [1, s. 355-356; 3, s. 72-74; 2, s. 29-30; 15, s. 60-70; 4, s. 107-108; 8, s. 180-182; 7, s. 96-100; 5, s. 178-179; 10, s. 186-189].

**1. 1918-ci il İyun böhranını yaradan səbəblər.**

1918-ci il mayın 30-da Müvəqqəti hökumətin rəisi (radioqramın mətnində "rəis" ifadəsi keçir.) Fətəli xan Xoyskinin imzası ilə xarici ölkələrin diplomatik korpuslarına Azərbaycan Cümhuriyyətinin yaradılması ilə bağlı göndərilmiş radioqramın mətnində dövlətin müvəqqəti paytaxtın Gəncə olduğu göstərilmişdir [7, s. 88; 9, s. 185]. Artıq aydın idi ki, yeni yaranmış Azərbaycan Cümhuriyyəti və onun hökuməti tezliklə Gəncəyə gələcəkdir. Azərbaycan Milli Şurası və hökumətinin Gəncəyə gəlməsindən qabaq onlara qarşı əsassız fikir formalaşdırılmışdır. Bu da məlum İyun böhranının meydana çıxmasına səbəb olmuşdur. 1918-ci il iyunun 16-da Azərbaycan Cümhuriyyəti hökuməti və Milli Şura Gəncəyə gəldi. Azərbaycan Cümhuriyyətinin Gəncədə fəaliyyəti daxili və xarici amillərlə əlaqədar olaraq çətinliklərlə üzləşdi. Bu çətinliklərin çoxu Azərbaycanda əhalinin müəyyən təbəqəsinin kənar təsirlər altında olduqlarından yeni yaranmış demokratik dövlət qurumunun mahiyyətinin düzgün başa düşməməsi ilə əlaqədar idi. Tarixi həqiqətdir ki, Nuru paşa Gəncəyə Azərbaycan hökumətindən tez gəlmişdi. O, Gəncəyə gəldiyi vaxt Azərbaycan hökuməti hələ Tiflisdə idi. Azərbaycan hökumətindən qabaq Gəncəyə gələn Nuru paşa güclü nüfuza malik idi. Ona görə də Azərbaycan əhalisinin Gəncəyə gələn müxtəlif dairələri onu qalib kimi qarşılayır, ona hadisələrin qarantı kimi baxırdılar. Belə bir vəziyyət siyasi məsələlərdə təcrübəsiz olan, gənc yaşlarında, polkovnik-leytenant (Osmanlı ordusunda yarbay) rütbəsindəykən vaxtından qabaq general-mayor rütbəsi alan və Qafqaz İslam Ordusuna komandan təyin olunan Nuru paşaya da təsir göstərmişdi. Çox vaxt "Mən əsgərəm, daxili işlərə qarışmıram" deyən Nuru paşa özü də hiss etmədən siyasi işlərin mərkəzində dururdu. Bu isə Azərbaycan hökuməti üçün gözlənilməyən nəticələrə gətirib çıxardı. Bu dövrün hadisələrinin tədqiqatçılarından biri olan C.P.Həsənov (sonralar C.P.Həsənli) 1993-cü ildə çap etdirdiyi əsərində İyun böhranı ilə əlaqədar yazdığı kimi [7, s. 97], Azərbaycanın Türkiyəyə (göstərilən əsərdə Türkiyə yazılsa da, məlumdur ki, bəhs olunan dövrdə Osmanlı dövlətindən söhbət gedir. – C.B.) ilhaq edilməsi tərəfdarları olan dairələr Milli Şuraya qarşı kompaniyaya başlayaraq Nuru paşanı da öz tərəflərinə çəkə bilmişdilər. Azərbaycana gəldiyi günlərdə Nuru paşa Azərbaycan hökumətinə hörmət və etimadla yanaşacağını, onun daxili siyasi hadisələrinə müdaxilə etməyəcəyini bildirib, türklərin Azərbaycanı idarə etmək deyil, müdafiə etmək üçün gəldiklərini qeyd etsə də, yuxarıda qeyd edilən dairələrin təsiri altına düşdüyü açıq-aydın görünürdü. Mirzə Bala Məmmədzadənin yazdığı kimi, mürtəce və ilhaqçı dairələr tərəfindən birtərəfli və qərəzli şəkildə məlumatlandırılmış Nuru paşa bildirirdi ki, solçulardan və müsavatçılardan daha çox mühafizəkar panislamist dairələrə rəğbət bəsləyir. O, hökumətin və Milli Şuranın tamamilə buraxılmasına və onun hüquqlarının paşanın öz arzusu ilə təşkil edəcəyi hökumətə verilməsini istəyirdi. Təşkil olunacaq bu "hökumət" isə rus çarizminin sabiq qapı qulları ilə şeyxülislamdan ibarət olacaqdı. Nuru paşanın Azərbaycan Milli Şurasına belə münasibəti onu Rus inqilabının nəticəsi kimi qəbul etməsi ilə bağlı idi [7, s. 97].

**2. M.Ə.Rəsulzadə və 1918-ci il İyun böhranının aradan qaldırılması.**

Yaranmış böhranı aradan qaldırmaq üçün Milli Şuranın sədri M.Ə.Rəsulzadə, Müvəqqəti hökumətin Baş naziri F.Xoyski və xarici işlər naziri M.H.Hacınskidən ibarət nümayəndə heyəti Nuru paşa ilə görüşüb danışmaq istəsələr də Nuru paşa onları qəbul etməkdən imtina edir. Nuru paşanın bu addımı böhranın daha da ciddiləşməsinə gətirib çıxarır və faktiki olaraq Azərbaycan istiqlalının tarixi taleyi məsələsi ortaya çıxır. İyun böhranı vaxtı

hadisələrin bilavasitə iştirakçısı və şahidi olmuş, Cümhuriyyət qurucularından və fədailərindən biri, Difai və Müsavatın fəal üzvlərindən biri olmuş, Azərbaycan Cümhuriyyətinin Əks-inqilabla mübarizə təşkilatının rəisi Nağı Şeyxzamanlının xatirələri maraq doğrurur. Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi və əsasən sabiq difaiçilərin təşkilandığı Gəncə Milli Komitəsi 1918-ci ilin əvvəllərində Bakının azad edilməsi üçün Türkiyədən yardım almaq üçün Nağı bəy Şeyxzamanlını ora göndərir. O, 1918-ci il aprelində olan vəziyyəti belə təsvir edir: "Batumda gəmini qarşılamağa gələnlərin çoxu yaxından tanıdıqlarımdır. Gəncədən, Bakıdan, Şəkidən, Qarabağdan, Azərbaycanın vilayət və qəzalarından gələn yüzlərlə azərbaycanlı var idi [17, s. 76]. Mən Rumıniya cəbhəsindən şərəfli vəzifəsini bitirmiş türk ordusunu Qafqaza gətirirdim [17, s. 77-78]. Əvvəldə qeyd etdiyimiz kimi, Azərbaycanın hər yerindən türk əsgərlərini qarşılamaq üçün axışıb Batuma gəlmişdilər. Onlardan nə üçün gəldiklərini soruşduqda, "Yol açıq, gəlməyə heç bir maneçilik yoxdur. Sən türk əsgərlərini buraya qədər gətirdin. Biz də buradan ölkəmizə apararıq. Seymin üzvləri istiqlal istəyirlər. Biz isə Azərbaycanı Türkiyəyə birləşdirmək istəyirik." [17, s. 78]." Bu faktlar bir daha göstərir ki, hələ Osmanlı dövləti ilə 1918-ci il iyunun 4-də bağlanmış Batum müqaviləsindən qabaq, Cənubi Qafqaz Seymi və federasiyası dövründə Azərbaycan istiqlalı məsələsi var idi, amma bunu bu zaman formalaşmış ilhaqçılar istəmirdilər. Bu dövrdə Azərbaycan istiqlal mücahidləri ilhaqçılarla mübarizə aparırdılar. Nağı bəy Şeyxzamanlı qeyd edir ki, ilhaqçılarla mübarizə etmək mənə çox çətin olmuşdur. Ruslar ilə mücadiləmizdə bu qədər əziyyət çəkməmişdik [17, s. 72]. Azərbaycanın Osmanlıya ilhaqı məsələsinin gündəmdə olduğu üçün Nəsib bəy Yusifbəyli Nağı bəy Şeyxzamanlıya belə bir məqamı xüsusilə qeyd etmişdir ki, "türklər bizi özlərinə ilhaq etmək istərlərsə gəlməsinlər." [17, s. 97]. İlhaqçıların tərkibi çox müxtəlif olmuşdur. Onların arasında vəkil, həkim, şeyxülislam, tacir, əsnaf, mülk sahibləri, ziyalılar var idi. İlhaqçıları mövqeyindən döndərmək məqsədilə onların nümayəndələrini (on nəfər) hərbi rəis Xəlil bəyin yanına aparırlar. İlhaqçılar özləri ilə hər birisində minlərcə imza olan bir neçə sənəd də təqdim edirlər: "Möhtərəm bəyimiz, xalqımız istiqlal istəmir, biz də istəmirik. Osmanlı dövlətinin bir hissəsi olmaq istiyirik." Lakin Xəlil bəy ilhaqçıları inandıra bildi ki, "onların mövqeyi düzgün deyil. Azərbaycanın Osmanlıya ilhaqı mümkün deyil. İstiqlalı əldə edib müstəqil yaşamanız üçün nə qədər lazım olsa, əsgər göndərəcəyik. Evlərinizə qayıdın və qurulacaq istiqlalı müdafiə edin" [17, s. 80]. Bütün bu faktlar bir daha aydın şəkildə onu göstərir ki, Cümhuriyyət qurucuları olduqca çətin və mürəkkəb bir vəziyyətə malik dövrdə Azərbaycanın istiqlalı uğruda həm daxili, həm də xarici qüvvələrlə mübarizə aparmalı olmuşlar. Azərbaycan istiqlal asan, hamar yol keçməmişdir. Aydın məsələdir ki, İyun böhranı, təsir altına düşmüş Nuru paşanın Azərbaycan Milli Şurasına və hökumətinə olan münasibətindən dolayı yaranmışdır. Nuru paşanın belə bir mövqeyi Osmanlı dövlətinin mövqeyi deyildi. Nuru paşanın mövqeyi 1918-ci il iyunun 4-də Azərbaycan hökumətinin Osmanlı dövləti ilə bağladığı Batum müqaviləsinə də, Azərbaycanın İstiqlal Bəyannaməsinin müddəalarına da zidd idi. Hadisələrin gedişi onu göstərdi ki, Azərbaycan hökuməti Gəncəyə gələnə qədər onunla Nuru paşa arasında artıq qeyri-normal münasibətlər formalaşmışdı [15, s. 63]. Qafqaz İslam Ordusu komandanlığının hərəkətləri Milli Şuranın radikal cinahının üzvləri N.Yusifbəyli, M.Y.Cəfərov və D.Vəkilovun etirazlarına səbəb oldu. Bu məsələ onları sosialsitlər dəstəklədi. İttihadçılar osmanlıpərəst mövqe tutmuşdu Milli Şuranın buraxılması ərəfəsində "Hümmət" fraksiyası etiraz əlaməti olaraq onun tərkibindən çıxdığını elan etmişdi. Siyasi vəziyyət daha da gərginləşmişdi [1, s. 355-356; 13, s. 100].

1918-ci il iyunun 16-17-də Gəncədə yaranmış İyun böhranı Məhəmməd Əmin Rəsulzadənin, Nəsib bəy Yusifbəylinin, Fətəli xan Xoyskinin və onlarla birlikdə olanların qətiyyəti, Azərbaycan istiqlalına sədaqəti, siyasi gedişi nəticəsində aradan qalxdı. Doğrudur, Milli Şuranın bəzi üzvləri Milli Şuranın buraxılmasının əleyhinə idilər və bu mövqe böhranlı

vəziyyəti daha da ağırlaşdırırdı.Milli Şurada, həmçinin müvəqqəti hökumətin tərkibində təmsil olunmayan bəzi qüvvvələr və ilhaqçılar, o cümlədən ittihadçılar Milli Şuranı hakimiyyətdən uzaqlaşdırmağa çalışırdılar. Bütün bunlara baxmayaraq Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi və qətiyyətli mövqeyi ilə Milli Şuranın 1918-ci il iyunun 17-də keçirilən 7-ci iclasında Milli Şura özünü buraxdı və tarixi əhəmiyyətli qərar qəbul etdi. Milli Şuranın iclasında iki qətnamə qəbul edildi. Birinci qətnamədə yeni yaradılan Müvəqqəti Hökumətin hüquq və vəzifələri haqqında idi. İkinci qətnamədə isə Milli Şuranın buraxılması barədə idi. Bununla da böhranlı vəziyyət aradan qaldırıldı, Azərbaycan istiqlalı qaragüruhçuların fitnə-fəsadından, başqa sözlə daxili düşmənlərdən qorundu. Milli Şuranın iclasını bağlayarkən Məhəmməd Əmin Rəsulzadə öz nitqində demişdir: "...Azərbaycanın müvəqqəti paytaxtı olan Gəncədə naqis də olsa milli hakimiyyəti təmsil edən bir qurumu bu şəkldə meydandan çəkilmək məcburiyyətində qalması, heç şübhəsiz, demokratiyanın "bir rişəti və qəvayi-mürtəcenin bir müvəffəqiyyətidir. Bu qüvvə ağ və pak qüvvələrə müqabil qara və napak qüvvvələri təqviyə edəcəkdir... Azərbaycan Rusiya inqilabının vəz etmiş olduğu müsbət nəzəriyyələrlə elan etdiyi əkanimi-hürriyyətdən son dərəcə istifadə edəcəkdir. İştə, müstəqil bir Azərbaycan siyasətən kəsbi-hürriyyət və istiqlal edəcək, Azərbaycanda ictimai hürriyyətlər və hüquqi-bəşərə aid düsturlar hər halda müstəbid Rusiya zamanından daha geniş, daha müsaid olacağına şübhə etmirəm. Azərbaycan Qafqasiyada ən hürriyyətpərvər və inqilabçı təsəvvür olunan Gürcüstandan daha məsuddur. Çünki burada bizim daxili işlərimizə icrai-nüfuz edən və edəcəyi mütəsəvvir bulunan qüvvət yabançı bir qüvvvət deyil, öz qüvvətimizdir" [1, s. 356; 13, s. 102-103].

Bu hadisələrin üstündən bir il keçəndən sonra M.Ə.Rəsulzadə göstərirdi: "Bizə dedilər ki, türkləri tənqid etmək olmaz, çünki onlar bura bizi idarə etməyə yox, bir əsgər kimi xalqı müdafiə etməyə gəlmişlər. Bu doğrudur. Lakin o da doğrudur ki, biim öz içərimizdə elə bəylər və ağalar vardır ki, onlar burada İstanbulun ağalıq etməsini tələb edirdilər." [6, s. 162]. İyun böhranı nəticəsində fəaliyyətini müvəqqəti olaraq dayandıran Məhəmməd Əmin Rəsulzadənin sədrliyi və siyasi qətiyyəti, manevri və müdrikliyi ilə Milli Şura öz tarixi missiyasını Azərbaycanın dövlət müstəqilliyini çox çətin və mürəkkəb bir mərhələdə bütün çətinlikləri dəf edərək qoruyub saxlamaq vəzifəsini yerinə yetirdi.

### 3.1918-ci il İyun böhranının aradan qaldırılmasında Əhməd bəy Ağaoğlunun rolu

Gəncədə İyun böhranı zamanı fəaliyyəti və mövqeyi ilə diqqəti cəlb edən şəxslərdən biri də Nuru paşanın siyasi müşaviri, vaxtilə Difainin qurucusu və rəhbəri olmuş Əhməd bəy Ağaoğlu idi. Mirzə Bala Məmmədzadə onun haqqında yazırdı: "Əhməd bəy Ağaoğlu kimi böyük şəxsiyyət belə Azərbaycanın müstəqil yaşaya bilməyəcəyini və Rusiya ilə Türkiyədən birinə arxalanmasının vacib olduğunu, Türkiyə məğlub olduqdan sonra Rusiya ilə anlaşmaqdan başqa çarə qalmadığını Bakıda çıxan bir rus qəzetinə verdiyi müsahibədə bəyan edirdi" [13, s. 108]. İyun böhranının aradan qaldırılması prosesində Əhməd bəy Ağaoğlu fəal iştirak etmişdi. Mirzə Bala Məmmədzadə 1919-cu ildə Bakıda çap olunmuş "İstiqlal" məcuməsinin xüsusi nüsxəsində R.Kosalının "Seymdən parlamana" adlı məqaləsinə istinadən yazır ki, "Gəncədə Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə, Baş nazir Fətəli xan Xoyski və xarici işlər naziri Məhəmməd Həsən bəy Hacınskidən ibarət bir heyət Qafqaz İslam Ordusu komandanı Nuru paşa ilə görüşüb anlaşmaq istəsə də, paşa özünün ancaq əsgər olduğunu, siyasətdən baş çıxarmadığını, bu barədə siyasi müşaviri Əhməd bəy Ağaoğlu ilə danışmaq lazım gəldiyini söylədiyi üçün heyət onunla görüşmüşdür. Əhməd bəyin fikri belə olmuşdur ki, komandanlıq sizin işinizə qarışmaq istəmir, məclisinizi açın, hökumətinizi qurun. Əhməd bəy Ağaoğlu təklif etmişdi ki, Milli Şura özünü ləğv etsin, o zaman paşa özü bir hökumət qurar. Heyət buna etiraz etmiş və bildirmişdi ki, belə olsa, Azərbaycanın beynəlxalq vəziyyəti mürəkkəbləşər. Əhməd bəy Ağaoğlu razı olur ki, Milli Şura hökumətini özü təşkil etsin, Milli Şura bütün hüququnu ona verməklə işin xatirinə özünü ləğv etsin" [13,

s. 99-100]. Göründüyü kimi, Milli Şura böhrandan çıxmaq üçün Əhməd bəy Ağaoğlu ilə nümayəndə heyətinin – Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski və Məhəmmədhəsən Hacınskinin müzakirə edib gəldiyi sonuncu razılaşma ilə bağlı qərar qəbul etmişdi. Düşünmək olar ki, Nuru paşanın siyasi müşaviri Əhməd bəy Ağaoğlu olmasaydı, yuxarıda göstərilən görüş və aparılmış müzakirə hansı məcrada ola bilərdi və İyun böhranının nəticəsi necə olardı? Yeni yaranmış, xarici düşmənlərlə yanaşı daxilində bolşevik-daşnak qüvvələri ilə üz-üzə qalmış Azərbaycan Cümhuriyyətinin taleyi necə olardı? Bu kimi suallar və aparılmış təhlillər bir daha göstərir ki, Cümhuriyyət qurucuları, millət fədailəri nə qədər çətin şəraitdə mübarizə aparmış, Azərbaycan Cümhuriyyətini, demokratik təməllər üzərində onun dövlət sturkturlarını qura bilmişlər.

Əhməd bəy Ağaoğlu kimi görkəmli ictimai xadimin, siyasi düşüncə tariximizin görkəmli aydınlarından birnin Nuru paşanın siyasi müşaviri olması, komandanlıq tərəfindən danışıqların aparılması səlahiyyətinin ona verilməsi İyun böhranının dərinləşməsinin qarşısını almışdır.

**4. Gəncə 1918-ci il İyun böhranı və ondan sonrakı günlərdə**

1918-ci ilin iyun ayında Azərbaycan istiqlalının başlıca düşməni isə Bakıda hakimiyyət qurmuş bolşevik-daşnak qüvvələri, eləcə də yerlərdə xalqımıza qarşı soyqırım həyata keçirən erməni silahlı quldur dəstələri idi. 1918-ci ilin iyununda 60 min əhalisi olan Gəncədə Noraşen adlı məhəllədə yaşayan ermənilər silahlanaraq təşkilatlanmış və istiqlalımıza qarşı təhlükə yaratmışlar. Ümumiyyətlə, çar Rusiyasının məkrli siyasətinin nəticəsində XIX əsrdə Azərbaycan torpaqlarına köçürülmüş ermənilərin yaşadıqları bütün məntəqələrdə Azərbaycan istiqlalına, onun müstəqilliyinə qarşı bir təhlükə vardı. O cümlədən də Azərbaycan Cümhuriyyətinin müvəqqəti paytaxtı Gəncədə də ilk günlərdən istiqlalımıza qarşı erməni xəyanəti, erməni təhlükəsi meydana çıxmışdı.

Gəncənin Şərq hissəsində, şəhəri iki yerə bölən Gəncə çayın sağ sahilində yerləşən Noraşen məhəlləsində yaşayan ermənilər türk qoşunlarının Azərbaycana gəlməsi və Gəncədə qərargah yaratmaları ilə razılaşa bilmirdilər. Onlar daha çox Şaumyan ordusunun – bolşevik-daşanak silahlı quldur birləşməsinin Gəncəyə doğru sürətlə hərəkəti intizarında idilər. Lazımi tədbir görülməsəydi Gəncədə yaşayan ermənilər istənilən vaxt hərəkətə keçib Qafqaz İslam Ordusu hissələrinə arxadan zərbə vura bilərdilər. Bunun üçün onların kifayət qədər qüvvəsi var idi. Gəncədə yaşayan ermənilər 600 nəfərlik bir tabora malik idilər. Həmin taborun ixtiyarında isə pulemyotlar, digər atıcı silahlar və hərbi təchizat var idi [12, s. 198]. Hələ 1918-ci il mayın 25-də qərargah zabitləri ilə Gəncəyə gələn Nuru paşa erməniləri itaət altına almaq üçün onların silahlarını toplamaq əmri verir. Ancaq ermənilər silahlarını vermək istəmirlər. Onların müqavimətini qırmaq ancaq güc tətbiq etməklə mümkün idi. Lakin o qədər qüvvə hələ yox idi. Qafqaz İslam Ordusunun əsas gücünü təşkil edəcək 5-ci Qafqaz diviziyasının birlikləri 1918-ci il iyunun 10-da Gəncəyə daxil oldu [4, s. 103-104; 14, s. 30]. Mayor Zehni bəyin komandanlığındakı 2-ci süvari alayı 6 iyun, mayor Cəmil Cahid bəyin komandanlığındakı 9-cu Qafqaz alayı 10 iyun günü Gəncyə gəldi. Bu iki alaydan ibarət birliyə "Gəncə qarnizonu" adı verildi [12, s. 198]. Gəncə qarnizonu 11 iyun 1918-ci ildə ermənilərin silahlarını toplayaraq, onları itaət altına almaq məqsədi ilə hərəkətə başladı. Tərkisilah əməliyyatı iyunun 11-12-də keçirildi. Cəmil Cahid bəyin əmri ilə hərəkətə keçən bölük döyüşə girən ilk bölmə oldu və ona görə də ermənilərin bütün gücü onlara qarşı istiqamətləndirildi. Ermənilər qurduqları pusqu ilə təşəbbüsü ələ alaraq, 9-cu alayın adı çəkilən bölüyünü mühasirəyə almağa cəhd etdilər. Bu vaxt ön dəstədən ayrılaraq ermənilərin əlinə əsir düşən əsgərləri ermənilər parça-parça doğradılar [12, s. 199; 16, s. 46-47]. Erməniləri tərkisilah edərkən 13 türk əsgəri şəhid oldu, biri zabit olmaqla altı nəfər yaralanmışdır. Onların bəzisinin meyidi eybəcər hala salınmışdı – bəziləri hələ canını tapşırmamış onların qulaqlarını, dodaqlarını, burunlarını kəsmişdilər, hətta bir əsgərin

sinəsində tonqal qalamışdılar. Nuru paşanın tapşırığı ilə həmin əsgərlərin cəsədləri yerli müsəlmanlardan və qoşundan gizlədildi və kimsə əzabkeş əsgərləri görməsin deyə, yalnız üçüncü gün səhər saat 5-də Şah Abbas məscidinin qarşısındakı meydanda onları basdırdılar [14, s. 31; 9, s. 73]. Vəziyyət təhlükəli xarakter aldığından bölük geri çəkilməyə məcbur oldu. Gəncə dəstəsinin digər bölmələri etibarlı mövqe tutaraq erməni silahlılarına cavab verdi. İyunun 11-də baş vermiş döyüş ermənilərin nisbi uğuru ilə başa çatdı. Bu cəhət erməni tərəfinin əhval-ruhiyyəsini qaldırmışdı. Nuru paşa ermənilərin çox qan tökülmədən təslim olmasını tələb edən bir məktub göndərmiş və onların can və mal toxunulmazlığını türk ordusu tərəfindən qorunacağını bildirmişdi [12, s. 199; 14, s. 32]. Lakin ermənilər müqavimətdən əl çəkmədi.

Ermənilərin göstərdiyi ilk müqavimət, habelə verilən itkilər türk qoşun hissələrinə mənfi təsir göstərə bilərdi. Bunu nəzərə alaraq, Cəmil Cahid bəy iyunun 12-də qətiyyətli addımlar ataraq erməni silahlılarını tərkisilah etməyi və ötən günkü döyüşdən yaranan ağır təəssüratı aradan qaldırmağı qərarlaşdırdı. Onun plan belə idi ki, ermənilər könüllü surətdə təslim olmazlarsa, bölmələri erməni məhəlləsi üzərinə həlledici hücuma keçsin. 1918-ci il iyunun 12-də müqavimətin mənasız olduğunu görən ermənilər silahlarını təhvil verərək təslim oldular. Elə həmin gün türk birlikləri erməni məhəlləsinə girib silahların toplanmasına başladılar. Gün ərzində 150 ədəd silah yığıldı. İyunun 13-14-də erməni məhəlləsi mühasirədə saxlanıldı və orda silah toplanılması davam etdirildi [12, s. 200]. İstiqlal beşiyi Gəncədə baş qaldırmaqda olan erməni xəyanəti beləcə aradan qaldırıldı. Lakin 1920-ci ilin mayında bolşevik işğalına qarşı Gəncə üsyanı zamanı üsyançıların arxadan vurulmasında, bolşeviklərə məlumat ötürülməsində ermənilər fəallıq etmiş, xislətləri olaraq xəyanət etmişlər.

Azərbaycan Cümhuriyyətinin 3 aylıq Gəncə dövründə dövlət quruculuğu sahəsində mühüm addımlar atıldı, dövlət sturukturunun əsasları yaradıldı. Gəncə dövrü Azərbaycan Cümhuriyyətinin formalaşdığı mühüm bir tarixi dövr olmaqla yanaşı, son dərəcə olduqca mürəkkəb və çətin daxili və beynəlxalq vəziyyətin olduğu bir dövrə təsadüf edir.

Azərbaycan Cümhuriyyətinin Gəncə dövründə 130-a yaxın qərar qəbul olunmuşdu. Bu qərarların içərisində Türk dilinin (Azərbaycan türkcəsinin) dövlət dili qəbul olunması, bayrağın (qırmızı fonda ağ səkkiz guşəli ulduz və aypara) qəbul olunması, Zaqatala dairəsinin Azərbaycana birləşdirilməsi haqqında qərarın verilməsi, soyqırım hadisələrini araşdırmaq məqsədilə Fövqaladə Təhqiqat Komissiyasının yaradılması, Gəncə şəhərinin və Cəbrayıl qəzasının tarixi adlarının bərpa olunması və Ağdaş qəsəbəsinin Ağdaş şəhəri adlandırılması, məktəblərin milliləşdirilməsi və yeni məktəblərin açılması, Gəncədəki müsəlman korpusunun "Əlahiddə Azərbaycan korpusu" adlandırılması və hərbi quruculuq sahəsində mühüm addımların atılması, yerlərdə milli komitələrin buraxılması və Azərbaycan Cümhuriyyətinin hakimiyyət sturukturlarının yaradılması, gömürkxana işinin təsis edilməsi, poçt-teleqraf sisteminin yaradılması, hərbi mükəlləfiyyət haqqında qərarın verilməsi, Azərbaycan vətəndaşlığı və pasportlarının verilməsi haqqında qanunun qəbul edilməsi, Gəncədə milli hərbi kadrların hazırlanması üçün hərbi məktəbin təşkil olunması və s.-ləri mühüm əhəmiyyətə malik idi.

Azərbaycan Cümhuriyyətinin Gəncə dövründə həyata keçirilmiş ən mühüm iş ordu quruculuğu idi. Azərbaycan ordusunun əsası məhz Gəncədə qoyulmuşdur. Azərbaycan istiqlalının qazanılmasından çox qabaq, 1906-cı ildə Gəncədə Difai partiyasının Gəncə komitəsi yaradıldıqdan sonra, xalqın düşmənlərinə qarşı silahlı mübarizə aparmaq məqsədilə Gəncədə Difaninin orta və yaşlı insanlardan, eləcə də gənclərdən ibarət iki silahlı dəstəsi yaradılmışdır. Bu dəstələrdən birincisinə Gəncənin adlı-sanlı tacirlərindən olan Sarı Ələkbər İmamqulu oğlu, ikincisinə - gənclərdən ibarət dəstəyə isə Nağı Şeyxzamanlı rəhbərlik etmişdir. Bu qüvvələr Birinci Dünya Müharibəsinin sonlarında Gəncədə yaranmış Gəncə Milli Komitəsinin başlıca qüvvəsinə çevrilmiş, cəbhədən qayıdan rus əsgərlərinin tərkisilah

edilməsində əsas rol oynamışlar. Tərkisilah məsələsi ilə bağlı Şəmkir dəmiryol stansiyasında baş vermiş hadisənin qəhrəmanları da məhz bu dəstələr olmuşdur. General Əliağa Şıxlınskinin rəhbərliyi altında bu qüvvələr daha da təkmilləşərək Cümhuriyyətin şanlı ordusunun ilk qüvvələri olmuşdur.

*Nəticə*

Azərbaycan istiqlalının tarixi sınaq qarşısında qaldığı İyun böhranının aradan qaldırlmasında Azərbaycan Milli Şurasının, xüsusilə də onun sədri Məmməd Əmin Rəsulzadənin bilavasitə böyük rolu olmuşdur. Məhz Məmməd Əmin Rəsulzadə və onun istiqlal silahadaşlarının siyasi fəaliyyətinin və əzmkarlığının sayəsində bu böhran aradan qaldırlmış, Azərbaycanın yenicə elan edilmiş istiqlalı xilas olunmuşdur. Gəncədə İyun böhranı meydana çıxmamışdan qabaq Azərbaycanda, ayrı-ayrı bölgələrin yuxarı təbəqələrinin nümayəndələrinin – burjua, feodal-klerikal dairələrin Azərbaycan Cümhuriyyətinə, onun hökumətinə, bütövlükdə Azərbaycan Cümhuriyyətinin qurucularına olan münasibətdən irəli gələrək Gəncədə qısa müddətli böhran yarandı və Azərbaycan Milli Şurasının qətiyyətli mövqeyi, Qafqaz İslam Ordusu komandanlığı ilə, Nuru Paşanın siyasi müşaviri Əhməd bəy Ağaoğlu ilə aparılan danışıqların nəticəsində, eləcə də Milli Şuranın Gəncədə 7-ci iclasında qəbul etdiyi tarixi qərar nəticəsində mövcud böhran aradan qaldırıldı.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi (7 cilddə), V cild, Bakı, Elm, 2008, 696 s.+40 illüstrasiya.
2. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. (2 cilddə), I cild, Bakı, "Lider" nəşriyyatı, 2004, 440 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. (2 cilddə), II cild, Bakı, "Lider" nəşriyyatı, 2005, 472 s.
4. Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1998, 336 s.
5. Əlizadə M. Azərbaycan Xalq Cümhuriyyəti və Gəncə. // Gəncə şəhər İcra Hakimiyyəti, Gəncə Dövlət Universiteti "Gəncə şəhərinin tarixi" elmi-praktik konfransın materialları, Bakı, "Nurlan" nəşriyyatı, 2004, s.177-182.
6. Əzizov.T.Ə. Azərbaycan XX əsrin əvvəllərində. Bakı, "Zaman", 1997, 256 s.
7. Həsənov C.P. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1993, 362 s.
8. XX əsr Azərbaycan tarixi. II cild, Bakı, "Təhsil", 2009, 560 s.
9. Xilaskar Ordu. (Hazırlayanlar: Dr.Rəşad İbrahimov, Dr. Fariz Xəlilli). Bakı, "İpəkyolu" nəşriyyatı, 2016, 238 s.
10. İsayev Ə. Cümhuriyyətin ilkin paytaxtı – Gəncə. // Gəncə şəhər İcra Hakimiyyəti, Gəncə Dövlət Universiteti "Gəncə şəhərinin tarixi" elmi-praktik konfransın materialları, Bakı, "Nurlan" nəşriyyatı, 2004, s.183-196.
11. İsmayılov K. Milli hərəkatın formalaşması və inkişafında Gəncə amili. // Gəncə şəhər İcra Hakimiyyəti, Gəncə Dövlət Universiteti "Gəncə şəhərinin tarixi" elmi-praktik konfransın materialları, Bakı, "Nurlan" nəşriyyatı, 2004, s.165-173.
12. Mehdiyev E. Müstəqilliyimizə qarşı 1918-ci ilin iyununda Gəncədə ermənilərin xəyanəti və bunun qarşısının alınması. // Gəncə şəhər İcra Hakimiyyəti, Gəncə Dövlət Universiteti "Gəncə şəhərinin tarixi" elmi-praktik konfransın materialları, Bakı, "Nurlan" nəşriyyatı, 2004, s.197-200.
13. Məmmədzadə Mirə Bala. Milli Azərbaycan hərəkatı. Bakı, "Nicat", 1992, 246 s.
14. Minaxanım Təkləli, Mehmet Rıhtım. Qafqaz İslam Ordusunun xronologiyası. Bakı, "Nurlar" nəşriyyat-poliqrafiya mərkəzi, 2008, 104 s.

15. Sadıqov H.H., Mirzəyev S.M., Məmmədov E.Q. Azərbaycan Xalq Cümhuriyyətinin Gəncə dövrü. Bakı, "Mütərcim" nəşriyyatı, 1999, 132 s.
16. Süleymanov M.Nuru paşa (sənədli oçerklər). Bakı, "Hərbi nəşriyyat", 1999, 144 s.
17. Şeyxzamanlı Nağı. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, Azərbaycan nəşriyyatı, 1997, 176 s.

УДК 94 (479.24)

*Джавид Векил оглы Багирзаде*
*Гянджинский Государственный Университет*

# ДЕЯТЕЛЬНОСТЬ МУХАММЕДА АМИНА РАСУЛЗАДЕ В РАЗРЕШЕНИИ ИЮНЬСКОГО КРИЗИСА 1918 ГОДА

*РЕЗЮМЕ*

*Ключевые слова:* Независимость Азербайджана, Июньский кризис, Мухаммед Амин Расулзаде, Нуру-паша, Национальный совет Азербайджана

Июньский кризис, разразившийся в Гяндже 16-17 июня 1918 года, разрешился в результате решимости, преданности независимости Азербайджана и политического курса Мухаммеда Эмина Расулзаде, Насиб бека Юсифбейли, Фатали хана Хойского и тех, кто был с ними. Правда, некоторые члены Национального совета были против роспуска Национального совета, и эта позиция еще больше усугубила кризис. Несмотря на все это, под руководством и решительной позицией Мухаммада Амина Расулзаде Национальный совет на своем 7-м заседании, состоявшемся 17 июня 1918 года, проявил самообладание и принял исторически значимое решение. Таким образом, кризисная ситуация была разрешена, и Азербайджан был защищен от проделок чернокожих групп, выступающих за независимость, иными словами, от внутренних врагов. Национальный совет Азербайджана, особенно его председатель Мухаммед Эмин Расулзаде, сыграл важную роль в преодолении июньского кризиса, когда независимость Азербайджана подверглась историческому испытанию. Именно благодаря политической активности и решимости Мухаммеда Амина Расулзаде и его соратников этот кризис был разрешен и недавно провозглашенная независимость Азербайджана была спасена.

Основателям республики пришлось бороться за независимость Азербайджана как с внутренними, так и с внешними силами в очень трудный и сложный период. Путь к независимости Азербайджана не был лёгким и гладким. Очевидно, что июньский кризис был вызван отношением находившегося под влиянием Нуру-паши к Азербайджанскому национальному совету и правительству. Такая позиция Нуру-паши не соответствовала позиции Османского государства.

UDC 94 (479.24)

*Javid Vekil Baghirzade*
*Ganja State University*

THE ACTIVITY OF MUHAMMAD AMIN RASULZADEH IN OVERCOMING THE CRISIS OF JUNE 1918

*SUMMARY*

*Key words:* Independence of Azerbaijan, June crisis, Muhammad Amin Rasulzade, Nuru Pasha, Azerbaijan National Council

The June crisis that arose in Ganja on June 16-17, 1918, was resolved as a result of the political actions, loyalty to the independence of Azerbaijan, and determination of Muhammad Amin Rasulzade, Nasib Bey Yusifbeyli, Fatali Khan Khoyski and their associates. It is true that some members of the National Council were against the dissolution of the National Council, and this position aggravated the crisis situation. Despite all this, with the leadership and decisive position of Muhammad Amin Rasulzadeh, the National Council demonstrated restraint and made a historically significant decision at the 7th meeting of the National Council held on June 17, 1918. With this, the crisis situation was resolved. Azerbaijan's National Council, especially its chairman, Muhammad Amin Rasulzade, played a great role in overcoming the June crisis, when Azerbaijan's independence faced a historical test. Thanks to the political activity and determination of Muhammad Amin Rasulzade and his comrades-in-arms, this crisis was resolved and the newly declared independence of Azerbaijan was saved.

The founders of the republic had to fight with both internal and external forces for the sake of Azerbaijan's independence in a very difficult and complicated period. The path to Azerbaijan’s independence was neither easy nor smooth. It is clear that the June crisis was caused attitude of Nuru Pasha, who was under certain influences towards the National Council and the government of Azerbaijan. Such a position of Nuru Pasha was not the position of the Ottoman state.

***Daxil oldu: 13.11.2025-ci il***